# N.Tusinin “Əxlaqi-Nasiri” əsəri: ailə və qadın psixologiyası məsələləri

**Nurəngiz Tofiq qızı Rzayeva**
*ADPU-nun Ümumi psixologiya kafedrasının dosenti, psixologiya üzrə fəlsəfə doktoru*
**E-mail:** nurengiz.rzayeva@gmail.com

**Rəyçilər:** psixol.ü.f.d., dos.M.S. Əliyev,
psixol.ü.f.d. Ç.Q. Verdiyeva

**Acar sözlər:** orta əsr, əxlaq, dəyər, ağıl, ailə, hikmət elmi, şəxsiyyət
**Ключевые слова:** средневековье, нравоучение, ценность, ум, семья
**Key words:** middle age, morality, value, family, practical wisdom, personality, практическая мудрость, личность

Azərbaycanın ictimai-pedaqoji, fəlsəfi və psixoloji fikir tarixində orta əsr dövrü özünəməxsus çalarlarla xarakterizə olunur. Bu dövr özünün məzmun və mündəricəsi etibarilə əxlaqın saflaşmasına, nəfsin təmizliyinə, insanların kamilləşməsinə səbəb olmuşdur. N.Tusi də məhz bu mündəricəyə malik komponentləri özündə ehtiva edən, dahi sələfləri olan görkəmli dühalarından biridir. Dünyəvi elmlərin hamısından hali olmuş və onların əksəriyyətinə dair əsərlər yazmış N.Tusinin “Əxlaqi-Nasiri” psixoloji məziyyətlərinə görə sistemli konsepsiyaya və kateqorial sistemə malikdir. Bu konsepsiyanın psixopedaqoji qatlarının açıqlanması psixopedaqoji fikir tarixinin uğurlarından biri kimi diqqəti cəlb edir. Özünün bənzərsiz fəlsəfi-psixoloji dəyəri ilə seçilən bu konsepsiyada hikmət elmi, onun mahiyyəti açıqlanır və bu kontekstdə ailə məsələləri, qadın psixologiyası, əxlaqi şüurun xüsusiyyətləri və xalqın mədəniyyəti, evqurma qaydaları, məhəbbət və onun fəziləti və s. məsələlər xüsusi yer tutur.

“Əxlaqi Nasiri”nin əsas qayəsini təşkil edən hikmət elmi bütövlükdə şəxsiyyətin formalaşması, onun struktur komponentləri nəfsin bütövlüyü və əxlaqın saflaşdırılması məsələlərini özündə ehtiva edir. N. Tusi hikmətin mahiyyətini psixoloji ölçülərlə açıqlayaraq qeyd edir ki, “hər şeyi olduğu kimi dərk etməyə, hər işi lazımi kimi yerinə yetirməyə hikmət deyilir: bunun nəticəsində insanın mənəviyyatı təkmilləşməli, arzu edilən səviyyəyə yüksəlməlidir” (5, s. 36)

Nəzəri və əməli hissələrdən ibarət olan 3 məqalə və 30 fəsli özündə birləşdirən hikmət elmində aşağıdakı məsələlər geniş təhlil olunur. Bu təhlillərin əksəriyyətində əxlaqın saflaşdırılması və psixopedaqoji qatları açıqlanır. Nəzəri və əməli cəhətdən bu qatları öyrənmək, onların tərkibinə daxil olan komponentləri müqayisə etmək, təhlillər aparmaq şəxsiyyətin özünüdərkində, özünütənzimləmə və özünüidarə kontekstində əsas paradiqmalardandır və müasir dövr üçün aktualdır.




N. Tusi qeyd edir ki, hikmət iki hissəyə bölünməlidir: biri-elmi nəzəriyyə, o biri-əməl (iş). Bu bənzətmə psixoloji çalarları ilə də diqqəti çəkir. Nəzəriyyəsiz praktika yarımçıq məna kəsb edir. Məhz psixoloqun da işinin əsas qayəsi nəzəriyyəni praktikada tətbiq etməkdir. Elm və əməl özünün fəzilətləri ilə şəxsiyyətin bütün komponentlərinə cavab verən və onu formalaşdıran bütöv konsepsiyadır, kateqorial bir sistemdir.

Elm varlıqların həqiqətən necə olduqlarını düzgün təsəvvür etmək, insanın yaradıcı ağlı (nefse-əmr) və sağlam düşüncəsi dairəsində onun xüsusiyyət və keyfiyyətlərini kəşf etməkdir.

Əməl-gizli qüvvələri ortaya çıxarmaq, müxtəlif sənət və peşələrdən fayda götürmək, müxtəlif iş vərdişləri əldə etmək üçün göstərilən fəaliyyətə deyilir, bu şərtlə ki, o, bəşəriyyətin qüdrətinin artmasına, onun təkmilləşməsinə səbəb olsun. Kimdə bu iki fəzilətin hər ikisi varsa, o ən müdrik insan, ən kamil alim hesab edilər, onun yeri bəşər övladının tuta biləcəyi ən yüksək mövqeyin fövqündə olar. Necə ki, müqəddəs kəlamlarda buyurublar: "Allah istədiyi şəxsə hikmət (elm, mərifətmüdriklik) bəxş edər. Kimə hikmət bəxş edilmişsə, ona çoxlu xeyir (əbədi səadət) verilmişdir. Bunu ancaq ağıllı adamlar dərk edərlər!" (1."əl-Bəqərə" surəsi, 269.)

Hikmət elmi hər şeyi olduğu kimi bilmək, hər şeyi lazımi qaydada başlamağı bacarmaq-

dan ibarət olduğundan varlıqlar neçə yerə bölünürsə, o da elə bölünür. Varlıqlar isə iki növdür: I-si, insanın şəxsi iradəsindən asılı olmayanlar; II-si, insanların fəaliyyət və iradəsindən asılı olanlar. Orta əsrlərdə nəfs haqqında təlimin inkişafında N.Tusi müəyyənedici rol oynamışdır. Onun kateqorial sistemində ayırd edilmiş psixopedaqoji fenomenlərin özünəməxsus və "genetik sırası" vardır. Dünyəvi elmlərin hamısından hali olmuş və onların əksəriyyətinə dair əsərlər yazmış N.Tusinin "Əxlaqi-Nasiri" psixoloji məziyyətlərinə görə sistemli konsepsiyaya malikdir. Özünün bənzərsiz psixoloji dəyərləri ilə seçilən bu konsepsiyada ailə məsələləri, kişi və qadın psixologiyası xüsusi yer tutur. N. Tusinin "Əxlaqi-Nasiri" əsərində ailənin psixoloji əsasları bir sıra komponentlərlə səciyyələndirilir. Bu kontekstdə ər-arvad münasibətləri, qadın tipləri, ailə dolandırmaq, evdarlıq qaydaları və s. məsələlər diqqəti cəlb edir.

Ailə həyatı nə qədər mürəkkəb və çoxcəhətli olsa da onun vektoru bilavasitə etika problemləri ilə bağlıdır. Ailə həyatının psixologiyası və etikası məsələləri "Əxlaqi-Nasiri"də beş fəsli özündə birləşdirən "Evadarlıq elmi haqqında" məqalədə ardıcıllıqla əks olunub və qeyd etdiyimiz cədvəldə də öz əksini tapıb. N.Tusini ailə dolandırmaq bilavasitə strateji məsələ kimi deyil, daha çox taktiki məsələ kimi maraqlandırırdı. O bu prosesdə həm kişilərə, həm də qadınlara xas olan məziyyətləri cinsi fərqlər baxımından xarakterizə edirdi. Belə ki, kişilərə arvad saxlamağın qaydalarını praktik ölçülərlə aydınlaşdırarkən zəhm, kəramət və başqarışdırma kimi üsulların vacibliyini və psixopedaqoji təhlilini açıqlayırdı. Digər tərəfdən də arvadların ərlərinə layiq olmaq üçün gözləməli olduqları şərtləri qeyd edirdi. Elə bu məqsədlə də əsərdə qadın xarakteroloji profilləri xüsusi yer tutur və tipoloji kontekstdə açıqlanır. Bu tipologiya "yaxşı qadın", "pis qadın" dixotomiyasına əsaslanır. Hesab edirəm ki, qədim etnosa malik olan Azərbaycan ailəsinin özünəməxsus dəyərlər sistemi ilə seçimli olduğunu nəzərə alsaq və müasir dövrümüzdə rast gəldiyimiz və mentalitetə uyğun olmayan ailə konfliktlərini müqayisə etsək o zaman bu əsərlərin, ibrətamiz fikirlərin nə qədər vacib olduğu, eyni zamanda dəyərlərə söykəndiyi zərurəti aydın görünər. Bu sahədə istər cəmiyyət, istərsə də kütləvi informasiya vasitələri tərəfindən vaxtaşırı maariflənmələr aparılarsa, ailələr şəxsiyyətlərarası münasibətlər kontekstində hörmət, səmimiyyət, qayğıkeşlik və problemlərə qarşı şüurlu yanaşma nümayiş etdirərlər. Eyni zamanda Azərbaycan ailəsi, xüsusilə də türk qadını özünün fərqliliyini duyar. Dəyərli Azərbaycan psixoloqu Ə.Ə. Əlizadə qadın psixologiyasında qadın mentaliteti məsələlərini təhlil etmiş, bu kontekstdə arxeotiplər və neotipləri vurğulamış və qeyd etmişdir ki, "Dünya mədəniyyətində ilk dəfə olaraq müqəddəs "Qurani-Kərim."də qadın mentalitetinin səhifələri qadına verilən tələblər kimi açıqlanmışdır. Namus, ləyaqət, ismət, təmizlik, toxunulmazlıq kimi mübarək kəlamlar həmişə seçimli olub" (2, s. 133).

"Əxlaqi-Nasiri"də istər qadın, istərsə də kişi üçün, eyni zamanda övlad tərbiyəsi, idarəetmə ilə bağlı seçimli məsələlər kifayət qədərdir. Əsərdə "Yaxşı qadın" ana, dost və kənizə bənzədilir, "pis qadın" isə zalım, düşmən və oğru kimi səciyyələndirilir. Bu bənzətmələrin ayrı-ayrılıqda psixoloji məziyyətlərinin verilməsi ailə həyatının etikası üçün aktuallıq kəsb edir. N.Tusi ailə həyatında kişi və qadın münasibətlərinin köklərini onların mənəvi həyatının xüsusiyyətlərində axtarır. Burada əsas məqsəd "nəslin davamı" olmaqla "şəhvətin söndürülməsi" və "başqa məqsədin güdülməsi" fonunda inkişaf etmək və formalaşdırmaqdır. N.Tusi kişi və qadın xasiyyətlərini sadəcə təsvir etmir, onun şəxsiyyətlərarası münasibətlər kontekstində ailə həyatı üçün önəmli olduğunu vurğulayırdı.

"Əxlaqi-Nasiri" əsərində "yaxşı qadın"ın xarakteroloji təsnifatında önəmli olan əsas cəhətlər vurğulanır. Qeyd etmək lazımdır ki, bu cəhətlər ailə özəkləri tərəfindən yerinə yetirilən və funksionalistlər tərəfindən vacib mövqe kimi qəbul edilən ailə funksiyaları ilə əlaqələnir. Psixoloji ədəbiyyatlarda ailə sosioloqları qeyd edirlər ki, ailənin təsərrüfat-iqtisadi, bərpa-

edici, cinsi, reproduktiv, tərbiyəvi funksiyaları bütövlükdə ailənin əsasını təşkil edir. Bu funksiyalar "Əxlaqi-Nasiri"də aşağıdakı kimi qeyd olunur və müqayisələri ilə seçimlidir.

- Yaxşı arvad malda, böyüklükdə, ev dolandırmaqda kişinin şəriki ola, səliqə yaratmaqda, pul xərcləməkdə, təsərrüfatı idarə etməkdə mahirlik göstərə... – Təsərrüfat-iqtisadi funksiya (ailənin büdcəsi, idarə olunması, əmək mühiti və s.);
- Ağıl, dəyanət, iffət, həya, ismət və nəzakətdə üzüyolalıqda, ərinin sözünə baxmaqda, fədakarlıqda misli olmaya. Qayğıkeşliyi, mehribançılığı, şux təbiəti, xoş xasiyyəti ilə ərinin könlünü açmağa, dərdini dağıtmağa səbəb ola – Bərpaedici və cins funksiyası (ailə insan üçün sağlamlaşdırıcı və psixoterapevtik mühitdir. Bu mühitdə ünsiyyətin və cinsi münasibətlərin bərpası ailənin gələcək imkanlarını şərtləndirir).
- Fədakarlıqla, dostluqda tayı-bərabəri olmaya, qohum-əqrəbaları arasında vüqarlı, hörmətli hesab edilə, dözümlü ola – Reproduktiv funksiya (uşaqların dünyaya gəlməsini özündə birləşdirir, şəxsiyyətlərarası münasibətlər əsas götürülür).

Ailənin tərbiyəvi funksiyası xüsusi əhəmiyyət kəsb edir. Burada əsasən ailənin nüvəsini təşkil edən uşaqların rəftar və davranışını təmin edən proses başa düşülür. Bu prioritet istiqamət olmaqla təkcə ailənin deyil, eyni zamanda cəmiyyətin funksiyasına çevrilir. "Əxlaqi-Nasiri"də də bu məsələlər geniş təhlil olunur və "Övlad saxlamaq və tərbiyə etmək qaydaları haqqında" adlanan fəsildə bütövlükdə bu məsələlər öz əksini tapır. Bu bölmədə əsasən N.Tusi uşaqlara adın qoyulması məsələsini analoji təhlil etmişdir. Psixoloji cəhətdən aktuallıq kəsb edən bu məsələni mütəfəkkir belə vurğulayır: "Namünasib ad uşağa bütün ömrü boyu xəcalət verər, qanı qaralar". Südəmər uşağı ağıllı, tərbiyəli dayələrə etibar etməyi məsləhət bilən N.Tusi tərbiyənin metodlarını da "Əxlaqi-Nasiri"sə vurğulamışdır.

Psixopedaqoji ədəbiyyatlarda rəğbətləndirmə, alışdırma, cəzalandırma və s. bu kimi tərbiyəvi metodlar əsas götürülür. Əsərdə bu məsələlər də müqayisə olunur. N. Tusi inandırma metoduna əsasən qeyd edir ki, "uşağı onun təbiətini korlaya biləcək adamlarla və şeylərlə oturub-durmağa, oynamağa qoymamaq, mehribanlıq və məhəbbət doğuran kəramətlərlə tərbiyə etmək lazımdır. Xüsusilə ağıla, şüura, idraka təsir edən başa salmaq yolu ilə".

Digər tərəfdən rəğbətləndirmə və cəzalandırma metodları xüsusunda belə açıqlama verilir: "Adət-ənənə, davranış qaydalarını öyrətmək, onları yerinə yetirməyə təhrik etmək, tabe olmadıqda tənbeh vermək, xeyirli işləri onun yanında tərifləmək, zərərli işləri isə pisləmək məsləhətdir".

Göründüyü kimi, stimullaşdırıcı, şüura təsir edən, təlqinə əsaslanan metodlar əsərdə ailə məsələləri kontekstində, valideyn-övlad münasibətləri və övladın tərbiyə edilməsi xüsusunda geniş təhlil olunur. Bütün bunlar onu deməyə əsas verir ki, N.Tusinin "Əxlaqi-Nasiri" əsərində ailə, onun əsasları, funksiyaları, ailədaxili münasibətlər, övladların tərbiyəsi, əxlaqi şüur, insani nəfs və onun növləri və s. məsələlər bütövlükdə bir sistem təşkil edir və spesifik psixoloji çalarlarla xarakterizə olunur.

**Məqalənin aktuallığı.** Nəsirəddin Tusinin fikirlərinin təhlili, elmi kəşfləri, xüsusilə də "hikmət" elmi bütün dövrlər üçün aktualdır və tədqiqat obyektidir. N.Tusinin konsepsiyasının öyrənilməsi bir tərəfdən Azərbaycan psixopedaqogikasının kateqorial sisteminin formalaşması, digər tərəfdən isə təhsilin fəlsəfi-sosioloji problemlərinin, eyni zamanda tərbiyə konsepsiyasının nəzəri-tarixi məsələlərinin açıqlanması, bu xüsusda ailədaxili münasibətlərin tənzimlənməsi, övlad tərbiyəsi kimi dəyərlərin aşılanmasında aktualdır

**Məqalənin elmi yeniliyi.** Məqalədə N.Tusi yaradıcılığının bəzi psixopedaqoji qatları açıqlanmış, xüsusilə də onun "Evqurma" qaydaları fəslinin komponentləri; ailə, onun funksiyaları, kişi və qadın psixologiyası, övlad tərbiyəsi, idarəetmə məsələləri psixoloji kontekstdə

müqayisə edilmiş, təhlillər aparılmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Ali məktəb tələbələrinə psixologiya və pedaqogika tarixi fənlərində mühazirələr zamanı, orta məktəb dərslərində, tərbiyə mövzusunda təşkil olunan seminar və tədbirlərdə istifadə nöqteyi-nəzərindən əhəmiyyətlidir. Psixologiya və pedaqogika ilə bağlı tədqiqatlarda istifadə etmək kontekstində əhəmiyyət kəsb edir.

## Ədəbiyyat


1. Z.M.Bünyadov,V.M.Məmmədəliyev. "Qurani-Kərim". Bakı, 2005.
2. Əlizadə.Ə.Ə. Qadın psixologiyası. Bakı, 2015.
3. Əlizadə Ə.Ə. Azərbaycan etnopsixologiyasına giriş. Bakı, 2003
4. Əliyev R.İ. Mən, atam-anam, sevgilim və övladlarım. Bakı, 2019
5. N. Tusi. Əxlaqi-Nasiri. Bakı, 1989.
6. Göyüşov Z. Fəzilət və qəbahət. Bakı, 1972.


**Н.Т. Рзаева**

## Работа Н.Туси "Ахлаки-Насири": проблемы семейной и женской психологии

## Резюме

В истории становления зербайджанской национальной культуры период средневековья характеризуются своеобразными философски-психологическими оттенками. Ярким представителем того времени являлся Н. Туси. Его трактат «Ахлаги-Насири» представляет собою систему основ и функций семьи, семейных отношений, воспитания детей, нравственного сознания, человеческого желания и его формы, а также имеет важное значение во многих специфических психологических нюансах.

**N.T. Rzayeva**

## "Prose of Morality" by N.Tusi; psychological matters of a family and woman

## Summary

In the history of the formation of the Azerbaijani national culture, the Middle Ages are characterized by peculiar philosophical and psychological shades. A prominent representative of that time was N. Tusi. His treatise "Ahlagi-Nasiri" ("Prose of Morality") is a system of the foundations and functions of the family, family relations, parenting, moral consciousness, human desire and its form, and is also important in many specific psychological nuances.

**Redaksiyaya daxil olub:** 07.07.2020